Müstəqil ictimai-siyasi, publisistik qəzet № 49 (1079) 16 dekabr 2021-ci il

Kredo

# ŞAİRLİYİN GÜZGÜSÜ, GÜZGÜNÜN ŞAİRLİYİ

## *“Payızımın adamları” silsiləsindən*

Çox adama qəribə gələ bilər. Mən Zəkulla Bayramlını - Zəki Bayram Yurdçunu ilk dəfə sözündən yox, səsindən tanımışam. Onun səsindəki aydınlığın, duruluğun təbiətindən gələn bulaqlığın gözündən tanımışam.

Səs nə vaxt insana doğma olur. Əlbəttə, təbiətdə çoxlu səslər var. Amma o səslərin içində insan səsi həmişə bizim can atdığımız, duymaq, tanımaq, eşitmək istədiyimiz sözün özü ilə üzə çıxanda bizə doğma olur.

Səs söz ilə birləşəndə insan obrazını yaradır.

Səsi və sözü öz harmoniyasında qəbul etmək, duymaq bizə imkan verir ki, səsin və sözün sahibinin kimliyini qavrayaq.



İlk baxışdan Zəkulla Bayramlı - Zəki Bayram Yurdçu boz görünür. Elə bil ki, ağ-qara televiziyada Nuh əyyamından gördüyümüz, tanıdığımız adamı təzədən görürük.Amma son dərəcə aydın nitq, parlaq təfəkkür obrazını gözümüzün qabağında az müddətə çıxış içində göstərə bilir.

Doğrusu, söz məni ütür, fikir məni yandırır. Nə sözü, nə düşüncəsi olmayanın ön sırada görünməyini açıq-aşkar ağrı ilə içimdən keçirirəm. Amma düşünürəm ki, sözü, səsi - bir sözlə, mənəvi nitqi olmayanın əvəzində Zəki Bayram Yurdçu kimi elmində şairliyi, şairliyində elmiliyi olan bir ziyalının görünməyi necə bizim üçün bir görkəzmə olardı.

Deməzdim ki, dünyada bütün işlərin, əməllərin əsasında təmənna dayanır. Heç bizim tele ekranların təqdim etdiyi qəhrəmanların da hamısının proteksiya ilə (qohumbazlıq) üzə çıxmağına da iddia etmirəm. Amma onu da iddia edirəm ki, mənəvi mühitimiz Zəki Bayram Yurdçu kimi Füzuli təfəkkürlü ziyalını, tədqiqatçını və əlbəttə, həm də şairi ümumi arenaya çıxara bilmiriksə, bu bizim ümumi günahımızdır.

Zəki Bayram Yurdçu - Zəkulla Bayramlı Füzuli tədqiqatçısıdır: “Füzuli və çağdaş ədəbi-nəzəri fikir” və “Füzulinin nəsr yaradıcılığı” kimi fundamental tədqiqat müəllifinin kimliyini tanımamaq əslində bizim düşüncə qənaətimizin sərhədlərinin məhdudluğu ilə bağlıdır. Ürək ağrısı ilə xatırladıram, bizim ideoloqlardan biri bir dəfə demişdi ki, “əşşi, nə qədər Füzulidən yazmaq olar?”. Özünü ideoloq hesab edən həmin kimsə bilmirdi ki, Füzulidən yazmamaq, Nizamidən danışmamaq, Nəsimidən söz açmamaq, Vaqifi öyrənməmək, Səməd Vurğunu inkar etmək, Cavidi tanımamaq... əslində insanlığı barbarlığa, yırtıcılığa aparan yolun başlanğıcıdır. Elə bu fikirlərin üstüncə deyirəm ki, Zəkulla Bayramlı - Zəki Bayram Yurdçu mənəvi mühitimiz üçün həm də Füzulinin başqalarının görə bilmədiyi, başqaları üçün qaranlıq olan tərəflərinə işıq salan bir tədqiqatçıdır.

Zəki Bayram, əlbəttə, birinci növbədə tədqiqatçıdır, özü də Füzuli tədqiqatçısıdır. Füzuli poeziyasının çağdaş ədəbi-nəzəri fikirdə əks-sədasını öyrənən tədqiqatçıdır. Üstəlik, o Füzuli yönümlü tədqiqatlarını ardıcıl olaraq davam etdirməkdədir. Bu da ona imkan verir ki, sözün üçqat, bəlkə də dördqat mahiyyətinə yenmək üçün qapı aça bilsin. Qapılar isə heç vaxt asanlıqla açılmır. Bunun üçün sözün min sehrinin min bir açarına sahib olmalısan.

Əslində Zəki Bayram Yurdçu üçün sözün min bir açarına sahib olmaq yolu Füzuli sirlərinə vaqif olmaqdan gəlir. Bəlkə də heç Zəki Bayram Yurdçu - Zəkulla Bayramlı heç şairlik iddiasında olmazdı. Amma Füzuli onun mənəvi mühitində elə bir od qalayıb ki, o, bu odu, bu alovu gizləyə bilməzdi. Bu od, bu alov isə ancaq Zəki Bayram Yurdçu ruhunun poetik əhvalı ilə üzə çıxa bilərdi. Yəni, artıq Zəkulla Bayramlıdan yox, yeni mənəvi söhbət gedir. Bu Zəki Bayram Yurdçu rütbəsidir. Zəki Bayram Yurdçunun son dövr şeirlərindən seçmələri nəzərimdən keçirdim. Bu şeirlərdəki yanan odun, ocağın ilk qorunu, qığılcımlarını, əgər belə demək mümkünsə, ilk işartılarını axtarmaq istədim.

Bəzən yanılırıq. 5-3 kəlmə sözün odu, ocağı bizi qarsır. Lap Məlikməmməd nağılında deyildiyi kimi, ilk alov bizi geri təpir. Amma sərraf nəzəri ilə sözün içinə yeriyəndə od görmürük, alov görmürük.

Açığı, bu qorxu mənim içimdə də vardı. Zəki Bayram Yurdçunun şeirlərini yalnız intellekt bəhrəsi kimi oxuyacağımdan qorxurdum. Ancaq onun qarşıma, gözümün önünə gələn ilk şeirini hisslərin yanğısı kimi qəbul etdim.

Şeirin adı elə budur: “Səndən də bir xəbər yox”. Açığı, şeiri elə buradaca tıəqdim etmək olardı. Ancaq təəssürat, öz duyğularımı sözə gətirməyə məni məcbur edir.

Axı yanıram, axı tənhayam, axı od içindəyəm. Bəs sən hardasan? İllər boyu səni ürəyimdə gəzdirmişəm. Səninlə, sənin varlığınla həyatımı zinətləndirmişəm, bəzəmişəm. Sənin varlığınla düşünmüşəm. Bəs indi sən hardasan?

Hansımız belə həyat düşüncələrinin qabağımıza qoyduğu suallara cavab vermək istəmişik? Hansımız bu suallara axtardığımız, gəzdiyimiz ünvana üz tutmamışıq?

Görünür, Zəki bayram Yurdçu - Zəki Bayramlı elə bu düşüncələr altında “Səndən də bir xəbər yox” adlı şeirini yazıb:

Yenə gəldi bir payız,
Yenə qocaldıq az-çox.
Bilməm deyim, deməyim;
Bu ürək yenə yalqız,-
Səndən də bir xəbər yox.

Boşaldı bağ-bağatlar,
Zaman uçur, - sanki ox.
Dünya qəfəs kimidir...
Bülbülün bağrı çatlar, -
Səndən də ki, xəbər yox.

Nələr deyir bu yağış;
Tut ucundan göyə çıx.
Hər tərəfdə sənsizlik...
Qəlbə məlhəm bir baxış,-
Səndənsə bir xəbər yox.

Göydə qara buludlar,
Yerin gözü, könlü tox.
Ruhum yalquzaq kimi...
Çox keçməz ki, yağar qar,-
Səndən də bir xəbər yox.

Durnalar ötdü küsgün;
Ərdəbildən, Ərbildən
Yenə xəbər-ətər yox...
Ax, ürəkdə bu nisgil, -
Səndən də ki, xəbər yox.

Ha çağırım, ha çalım;
O əzəlki təpər yox.
Heç bilmədim xoşbəxtsən,
Yoxsa...başı bəlalım?..
Ömür keçdi, a zalım,
Səndən də bir xəbər yox.

Mən şeiri bənd-bənd sözə çəkə bilərdim. Hər misranın arxasında yatan duyğuların dərinliyinə varmaq üçün qapı aça bilərdim. Amma istədim ki, şeiri oxucu bütöv oxusun. Heç olmasa, Zəki Bayram Yurdçu kimi bir şairin mənəvi mühitindəki həyəcanların mahiyyətini başa düşsün.

Kim nə deyir desin, söz bizim adımızdır. Ünvanımızdır. Bu şeirdə Zəkulla Bayramlı yox, Zəki Bayram Yurdçu adlı bir şair görünür.

... “Zəki” sözünün mahiyyəti “ağıl”, “idrak”, “düşüncə” anlamına gəlir. Kimin mənəvi mühiti Zəki mühitindən qidalanırsa, onun təbiəti mənəvi kamlıq mərtəbəsinə çatır. Bayramlıq haqqı alır. Ancaq Zəki Bayram təkcə bu adlarla kifayətlənmir, həm də özündə poetik yaradıcılığı üçün bir “Yurdçu” adını da ehtiva edir.

Düşünürəm ki, adlar əzəlindən qəza, qədər bəhrəsi olmur. Ata-ana istəyindən doğulur. Amma sonra ədəbi təxəllüs Zəka sahibinin, ad sahibinin öz istəyi ilə şəxsiyyətinə ünvan kimi ehtiva olunur. Zənnimcə, Yurdçu adı Zəki Bayram üçün bu məqamdan doğulub.

*Əli Rza* Xələfli
*15.12.2021*